M.Ə.Rəsulzadə – 140

# ADR liderinin məfkurə irsi



**Görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin 140 illik yubileyi ilə bağlı Prezident İlham Əliyevin 30 dekabr 2023-cü il tarixli sərəncamına əsasən AMEA Mərkəzi Elmi Kitabxanası Azərbaycan Türk Ocağı ilə birgə "M.Ə. Rəsulzadə və Türk dünyası" adlı konfrans keçirib.**

Azərbaycan Türk Ocağının sədri Akif Aşırlı M.Ə.Rəsulzadənin Türk Ocaqlarındakı fəaliyyətindən bəhs edərək bildirib ki, onun fəaliyyətinin həmin dövrü lazımınca araşdırılmayıb. Şimali Kipr Türk Cumhuriyyətinin nümayəndəsi Ufuk Turqaner M.Ə.Rəsulzadə irsini yüksək qiymətləndirib: "O, Ziya Göyalpın "Türkləşmək, islamlaşmaq və müasirləşmək" düsturuna sədaqət göstərməklə bütövlükdə Türk dünyasına xidmət göstərib".

Tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova, AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru Məmməd Əliyev də M.Ə. Rəsulzadə irsi barədə əhatəli çıxışlar ediblər. Milli Məclisin deputatı Arzu Nağıyev M.Ə. Rəsulzadənin 140 illiyi ilə bağlı yubiley nişanın buraxılmasını təklif edib. Bakı Beynəlxalq Mulltikulturalizm Mərkəzinin şöbə müdiri, jurnalist Yadigar Məmmədli Rəsulzadənin adının Bakı Dövlət Universitetinə qaytarılmasını arzu etdiyini söyləyib.

M.Ə. Rəsulzadənin nəvəsi, Əməkdar rəssam Rais Rəsulzadə tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib. Sonda qonaqlar "Rəsulzadə – 140" sərgisinə tamaşa ediblər. Sərgilənən dəyərli kitab, qəzet və jurnallarla tanış olublar.




***Ceyhun MİRZƏLİ***